## Lecture 4

### A. Afina. Siyasi və mədəni mühit

İki başlıca elm-mədəniyyət mərkəzi (Kiçik Asiya sahilləri və İtaliyanın cənubu-Siciliya) kənarında olan yunan şəhərləri arasında Afina fərqlənməyə başlamışdı. [-6]-cı əsrin ortalarından başlayaraq Afinalıların Homeri öyrəndikləri, əzbərlədikləri məlumdur. [-6]-cı əsrdə **Solon**`un (t.“-634”-t.“-559”) islahat və qanunları Afinanı demokratik yola salmağa başlamışdı. O, tanınmış şair idi. Persiya üzərində qələbə -Dara ilə Marafon (“-490”) və onun oğlu Kserks ilə əsasən dəniz savaşı (“-480/479”), bu savaşlarda yunan güclərinin təşkilatçısı və birincisi olan Afinanın nüfuzunu qeyri-adi dərəcədə artırmışdı. Böyük dövlət adamı və sərkərdə **Perikles** (“-495”-“-429) Afina yaxınlığında doğulmuş, təqribən 30 il Afina`nın rəhbəri olmuş, demokratiyanın inkişafında mühüm rol oynamış (Platon və Aristotel bir qədər fərqli düşünür, Periklin hər şeyi siyasi uğur naminə etdiyini deyirdilər), kasıbların mənafeyini güdən qanunlar çıxarmış, mədəniyyətə himayəçilik etmişdir. Yaxşı təhsil almışdır (Elealı Zenon, tanınmış musiqiçi Damon ona dərs demiş, formalaşmasına təsir göstərmişlər). Tarixçilər “Perikl dövrü” ilə “Qızıl dövr” terminlərini çox zaman eyni mənada işlətmişlər. Tarixçilərdən Fukidid və Plutarx onun parlaq surətini yaratmışlar.

Afina məhz Perikl dövründə geriqalmışlığı aradan qaldırdı və güclü inkişaf edib zəka mərkəzinə çevrildi. Sokrat Perikl dövründə tanınmağa başlamışdı. Persiya ilə son savaşda  və barışıq əldə edilməsində (“-449”) xüsusi rol oynamış, “-461”-ci ildə Afina`nın liderliyinə yüksələ bilmiş, Peloponnes savaşının (“-431”-“-404”) başlanğıcında da liderlik etmişdir. Perikl Elealı filosoflar Protaqoras və Zenon`la, Sofokl və Feidias`la (Fidi ilə), musiqiçi Damon və digər zəka və sənət adamları ilə yaxınlıq etmiş, lakin ən çox Anaksaqoras`ın təsiri altında olmuşdur. “Biz həm müasirlərimiz, həm də sonrakı nəsillər üçün heyrət mövzusuna/obyektinə çevriləcəyik” (Perikl).

Afinalı sərkərdə Alkibidias`la Afinanın qarşıdurması Afinalıların vəziyyətini ağırlaşdırmışdı. Afinanı rəqib bilən Persiya Spartaya kömək etdi. Afinada Spartanın təsirində olan 30-lar hakimiyyəti və onun terroru vəziyyəti qarışdırmışdı. Sonra yenidən demokratiyanın gəldi, qisasçılıq (Sokrat da bunun qurbanı oldu) hissləri də artdı. Peloponnes savaşında Afina Spartaya məğlub oldu, lakin zəka və sənət baxımından öz liderliyini əldən vermədi.

Azad şəhər-dövlətlər, onların demokratik idarəetmə adət-ənənəsi elm və fəlsəfənin inkişafı üçün münbit mühit oldu. Qarşıdakı insanlarla açıq dialoq və mübahisə imkanı, xalq toplantıları və məhkəmələrdə sözlə inandırmaq

ehtiyacı,natiqlərin yarışı (Aristotel “Ritorika” kitabını bu işə kömək üçün yazmışdı) siyasətlə məşğul olmadan maraqlı yaşamağa imkan verir, həvəs yaradırdı. Vətəndaşlarıən azad olması ilə yanaşı qul əməyindən istifadə elm və fəlsəfə üçün sərbəst vaxt əldə etmək məsələsinə kömək edirdi. Əlbəttə ki, hay-küyçülər, qabiliyyəti ilə düz gəlməyən dərəcədə irəli çıxmaq ehtirasına qapılanlar, intiqam almaq istəyənlər dədemokratik quruluşdan öz məqsədləri üçün istifadə etməyə çalışırdılar. Bu barədə Sokrates`in sözünü yada salmaq yerinə düşür: “yaxşı olardı ki, başqalarının ağzını bağlamayasınız və özünüz də yaxşı olasınız”.

Delos birliyi (Yunan şəhərləri ya savaşda iştirak etməli, ya maddi kömək etməlidirlər) və Afina donanmasının güclənməsi! Mühüm qərarları, o cümlədən məhkəmə qərarlarını qəbul edən seçkili (püşk ilə, maksimum 2 dəfə) 500-lər Məclisi (seçkidə bütün xalq-30 yaşdan böyük kişilər iştirak edə bilirdi; qadınlar və qullar vətəndaş sayılmırdılar). Demokratiya dövründə kübarların gücü azalmışdı. [-4]-cü əsrin birinci yarısında yunan şəhər-dövlətləri bir-biri ilə vuruşub əldən düşmüş durumda ikən Makedoniya güclənməkdə idi.

Afina yunanların mədəni mərkəzinə çevrilirdi. Esxil “Perslər” faciəsində Daranın məğlubiyyətini təsvir etmişdi. Perikl zamanı yanğına uğramış Akropol`un bərpası başa çatdırıldı, böyük heykəltəraş Fidi fəaliyyətdə idi. Sofokl`un faciə-dramları, Evripid`in bədbin-skeptik faciələri (Yunanıstanın iç savaş dövrü), onun müasiri Aristofan`ın komediya-dramları (o cümlədən Sokratı günahlandırması) populyar idi.

Kiçik Asiya, Halikarnas/Caria (indiki Bodrum, Türkiyə) doğumlu **Herodotus** (“-484”-“-425”) - “Tarixin atası”, bəzilərinə görə həm də “Tarixin yalançısı” – Voltair`ə görə hər ikisi - Doriya tayfalarından olsa da, “Tarixlər”ini ən mədəni dil sayılan İonia ləhcəsində yazmışdı. O, çox güman ki, siyasi səbəb üzündən yetkin çağında (?”-447”) vətəni tərk edib Afinaya getmiş (Perikl dövründə), bir neçə ildə sonra isə Magna Graecia`ya, Furiuma getmişdi, başqa sözlə desək, hər üç Yunan elm və hikmət yurdunda yaşamışdı.

## B. Anaksaqor

**Anaksaqor** (“-500”-“-428”) Klazomanai`də (indiki , Türkiyə) doğulmuş, gənc yaşında (20?) İonia`nı tərk edib Afinaya gələn ilk filosof sayılır. Afina yunan dünyasının siyasi-iqtisadi və mədəni mərkəzinə çevrilməkdə idi. O, Perikl`in müəllimi və yaxın dostu oldu. Əvvəlki bir çox filosoflardan, o cümlədən Parmenides və Empedokles`dən fərqli olaraq sadə nəsr şəklində yazmış, ondan da fraqmentlər qalmışdır (Simplikios).

Anaksaqor kainatın efir (aether) adlı daima dövretmədə olan gözəgörünməz maddə ilə dolu olduğunu və "qırmızı qaynar daşlar"dan ibarət olan səma cisimlərinin məhz efir vasitəsilə dövr etmə hərəkətində olduğunu irəli sürmüşdü. Heç nədən heç nə doğmur və heç nə yox olmur, "sadəcə mövcud şeylərin qarışması və ayrılması var". Anaksaqoras, beləliklə, yaranma və dəyişməni inkar etmir. Anaksaqor təbiətdə böyük müxtəlifliyin olduğunu deyirdi, hər şey özü təməldir, o nə qədər dəyişsə də, sonsuz bölünsə də, təbiətini dəyişdirmir, "hər şeyin hər şeydə bir parçası var". Beləliklə, Empedokles`də olduğundan fərqli olaraq dörd təməl ünsür deyil, sonsuz təməl ünsür var; heç nə saf deyil, başlanğıcdan hər şey qarışıqdır, bölünməyən şey yoxdur, "daima bir daha kiçik vardır, çünki varolanın bölmə yoluyla varlıqdan kəsilməsi imkansızdır".

Anaksaqora görə ulduzlar və yeri təşkil edən maddələr eynidir. Göy cisimləri də ağır maddələrdən, məsələn daş və dəmirdən ibarətdir, onlarda ilahi heç nə yoxdur. Bu cisimlərin öz ağırlıqları nəticəsində yerə düşməmələrinin səbəbi onların yerin ətrafında dövr etmələridir (bu, əslində, mərkəzdənqaçma qüvvələri haqqında fikir idi). Günəş, Ay və ulduzlar Yerdən qopan daşlardır, sürətli hərəkət nəticəsində közərmiş şəkildədirlər (sürət qüvvə yaradır). Anaksaqor cisimlərin hər cür dəyişməsini gözəgörünməz kiçik zərrəciklərin birləşməsi və ya ayrılması ilə izah edirdi. Kainat bir dəfə ilkin halda doğulub. Müəyyən ağıl və ya dərrakənin təsiri nəticəsində ilkin halın, qarışıq maddənin bir yerində güclü fırlanma hərəkəti başlamış və bu hərəkət get-gedə böyümüş, nəticədə ilkin qarışıq maddə tərkib hissələrinə (birinci növbədə hava və oda) ayrılmışdır.

Anaksaqoras "Nus"dan, yəni Zəkanın/Ağlın/Zehnin (Nous/Mind) aparıcı gücündən bəhs etmişdi, "o hər şeyin bilgisinə və qüdrətə sahibdir"; qarışıqlığı düzəldən, Xaosu Kosmosa keçirən Nus`dur. "Nus mövcud şeylər arasında onların ən incəsi və ən safıdır", yeganə saf olan şeydir, əks halda "onlar üzərində heç bir gücə sahib olmazdı".Nus başlanğıcda hər şeyi hərəkətə gətirmiş, hava mərkəzə, daha incə şey olan efir isə havanın ətrafına yığılmışdır. Bir-birinə zidd olan xassələr bir-birindən ayrılmış (sıx-seyrək, isti-soyuq, quru-yaş, işıq-qaranlıq), sıx, yaş, soyuq və qaranlıq olanlar indi dünyanın (Yer`in) olduğu yerə, əks xassədə olanlar isə efirə tərəf yığışmışlar. Daşlar sanki mərkəzdənqaçma qüvvəsi nəticəsində uzaqlaşmış, qızmış, səma cisimlərinə çevrilmişlər. Bizim dünyamıza bənzər digər dünyaların mövcudluğu mümkündür. Boşluq yoxdur. O, Ay`ın öz işığını Günəşdən aldığını deyirdi, yəni Ayın işığı Günəş şüalarının onun səthindən əks edilməsi ilə bağlıdır. Mümkündür ki, Ayda canlılar yaşayır. O, Günəş və Ay tutulmalarını izah edə bilirmiş (?). Anaksaqoras da əvvəlki İoniya filosofları kimi yaradılış və təşəkkülü fiziki-mexaniki yolla izah edir.

Anaksaqorasa müasirləri Nus ləqəbi vermişdilər (Plutarx. Periklin həyatı). Anaksaqoras Empedokles`in əksinə duyğunun (bənzərliklər deyil) ziddiyyətlər əsasında ortaya çıxdığını vurğulayır. Gecə görə bilməməyimizin səbəbi həm göz bəbəyimizin, həm də gecənin qaralığıdır.

Öz fikirləri ilə sağlam düşüncəyə meydan oxuduğuna görə (məsələn, Günəş allah deyil, daş parçasıdır; meteoritlər Günəşdən qopan parçalardır) Periklin düşmənləri Anaksaqorası dinsizlikdə və mümkündür ki, Perspərəstlikdə (medeizm) suçlamışdılar ("-450" ətrafında). Bir qədər həbsdə yatan Anaksaqoras orada sahəsi dairənin sahəsinə bərabər olan kvadrat qurmaq məsələsi ($x^2 = \pi R^2$) üzərində düşünürmüş (Plutarx). Bu doğrudursa, yunanların praktik deyil, tam nəzəri xarakterə malik bir riyazi məsələ ilə maraqlandıqları ortaya çıxır; bu yeni və çox mühüm addım idi. Bu, Antik dünyanın üç məşhur qurma məsələsindən biri (zamanca ilki) sayılır. Perikl Anaksaqorasın təqribən 30 il yaşadığı Afinadan Lampsakusa (Hellespont, Kiçik Asiya sahillərinin şimalı, indiki Çanakkale yanı) qaçmasına kömək etmişdi. (Anaksaqor ölümə məhkum edilmişdi. Perikl`in sayəsində ölüm cəzası həmişəlik Afinanı tərk etməklə əvəz olunmuşdu?). Anaksaqoras orada öz məktəbini açmış və ömrünün sonuna kimi onu idarə etmişdi. "Vətəni ilə niyə çox maraqlanmır?" sualına göyü göstərib onun vətəni olduğunu, qürbətdə ölmənin talesizliyindən söhbət düşəndə isə o dünyaya gedən yolların hər yanda eyni olduğunu deyibmiş. Lampsakuslular aqorada, bazar məhəlləsində onun heykəlini qoymuşdular. Bu böyük filosofun xatirəsi Lampsakuslular tərəfindən əziz tutulur, ölümündən keçən illər uzun müddət mərasimlərlə (məktəb uşaqlarına tətil və əylənmə günü olaraq) yada salınırdı. Anaksaqorasla Milet-İoniya-Kiçik Asiya məktəbi bitir, Afina fəlsəfə məktəbi başlayır. Perikl Anaksaqorası xilas etdi, Sokratesi isə xilas edən lider olmayacaqdı...Anaksaqoras`ın öldüyü il Platon dünyaya gəldi...

Sokratesə görə Anaksaqoras hadisələrin ancaq necə baş verməsi haqqında danışır, niyə sualına isə cavab vermir, hər şeyə qadir saydığı Ağlı ("Nus"u) əslində işə qarışdırmır, hava, efir və su kimi qəribə şeylərdən danışır, insandan, onun məsuliyyətindən söhbət açmır (Plato. Phaedo). Bu məsələdə Sofistlərlə Sokrates`in fikirləri oxşardır.

## C. Sofistlər. Protoqoras

**Sofistlər** və Sokrates dövrünü yunan maarifçiliyi və ya aydınlanma dövrü sayanlar var (b.e.ə. 5-ci əsr). Bu dövr təbiətə maraq yerində qalmaqla(?) insana (əxlaqa, dinə, siyasətə, mədəniyyətə,...) marağın kəskin artması baş verdi (Avropada 17-ci əsrdən sonra gələn 18-ci əsr kimi). İnsan sanki əvvəlcə ətrafını, sonra özünü anlamağa çalışır. Bu dövrdə təbiət fəlsəfəsinin gücünün, imkanlarının tükəndiyi də deyilir; bir-birinə uyğun gəlməyən və bir-birinə zidd

olan izahlar, öz növbəsində, şübhəçiliyi artırırdı. Sofistlər haqqında məlumat əsasən sonra gələn filosofların əsərlərindəki alıntılardan ibarətdir, onların günümüzə gəlib çıxmış ciddi yazıları yox dərəcəsindədir. Sofistlər təbii insan haqları görüşünü meydana çıxarmış və onu müdafiə edirdilər. Sofistlər və onların tənqidi (Protaqorasa hörməti istisna etməklə) Sokrates və Platon, müəyyən dərəcədə də Aristotel fəlsəfəsinə ideya verdilər, - belə demək mümkündür. Sofistlər məktəb açmamışdılar, onlar fərdi dərs verirdilər.

Sofistlər insani ehtiyacları müzakirə edirdilər (maarifçilik!). Bilik və sənətin önəmini, faydasını (mücərrəd olmadığını) göstərməyə, vətəndaş yetişdirməyə çalışırdılar (Aristotel "bilmək üçün bilmək" deyəcəkdi). Sofistlər Yunanıstanı gəzib-dolaşır, maraqlananlara (üstəlik dərs üçün pul verə bilənlərə) dərs verirdilər. Gənclər arasında sofistlərə böyük maraq vardı, onlar sofistlərin köməyilə öyrənmək, mübahisə etmək qabiliyyətini gücləndirmək istəyirdilər. Sofistlər sanki öz fikirlərini müdafiə etməklə məşğul olmur (filosofların əksinə olaraq), həqiqəti aşkar etmək məqsədi güdür, bu yolu öyrətməyə çalışırdılar; bu, mənəviyyat fəlsəfəsi ilə bəzən (çox zaman?!) düz gəlmirdi. Sofistlər insanları fəzilətli olmağa çağırmırdılar. Platon kimi filosoflar bu səbəbə görə də (əsas?!) sofistləri sevmirdilər (yumşaq desək). Fəlsəfi doktrina tam səmimi olmağa imkan vermir (?!)

**Protaqoras** ("-490/480"-?"-420") Demokrites`in həmyerlisidir, Abdera doğumludur (məşhur filosoflardan sanki yalnız Platon Afina doğumludur). Afinaya dəfələrlə (azı iki dəfə?!) gəlib-getmiş, Herodot, Sokrates, Perikl kimi ünlülərlə tanış olmuş, Periklin bir layihəsində iştirak etmişdir. Afinadan canını qurtarmaq üçün qaçdığı güman olunur (tanrısızlıqda günahlandırılırdı).

Protaqoras "insan hər şeyin ölçüsüdür" (əslində "bütün şeylərin ölçüsü insandır"), "üşüyən üçün külək soyuq, üşüməyən üçün soyuq deyildir", yəni vacib olan duyğudur və fərqli insanların eyni şey haqqında duyğuları fərqli ola bilir və ya bir insanın eyni şey haqqında duyğuları fərqli zamanlarda fərqli ola bilir) deyirdi. Platon isə duyğulara güvənmək olmaz, bilgi ağılla qavranılan şeylərdən – İdeyalar`dan ibarətdir deyəcəkdi. Protaqoras həmçinin "hər şey haqqında bir-birinə zidd olan iki fikir söyləmək mümkündür və hər ikisi doğru ola bilər" deyirdi. Protaqoras tanrılar haqqında əsərində tanrıların varlığı, yoxluğu, təbiətləri haqqında bilgi almağın mümkünsüzlüyünü (məsələ qeyri-müəyyəndir və insan ömrü qısadır!) deməsi ("Tanrılar haqqında") ona hücumlara yol açdı. O, Afinadan qaçmalı olmuş və deyilənə görə, bir versiyaya görə qaçarkən dənizdə batmışdı.

Platon isə "Bütün şeylərin ölçüsü Tanrıdır" deyəcəkdi ("Qanunlar"). Platonun mühüm dialoqlarından biri "Protaqoras" adlanır, onun "Qorqias" (digər məşhur sofist) adlı dialoqu da var. Protaqoras və Qorqias kimi sofistlərin (ödənişli)

dərsləri Afinada (və digər şəhərlərdə!) çox populyar olub. Sofistlər insanın insan olması üçün bir ümumi dərsə-həyat dərsinə, siyasət dərsinə ehtiyacı olduğunu vurğulayırdılar; insanlar bunu öyrənə bilərlər (Aristotel: insan siyasi canlıdır/politikon zoon). Sofistlər şeir əvəzinə natiqliyi, xitabəti/ritorikanı və beləliklə, gözəl nəsri dəbə mindirdilər. Aristofanes, Platon və qismən də Aristoteles sofistləri mənfi/pis cəhətdən təsvir etmiş, bir çox hallarda gülünc vəziyyətə salmışlar (başlanğıcda müdrik, bilgin və ya bilgin müəllim mənası verən sofist kəlməsi tənqidlər və lağlar nəticəsində mənfi çalar almışdır). Onlar sofistlərin pul alıb dərs vermələrini xüsusilə tənqid atəşinə tutmuşdular. G.H.Lewes`ə görə "Sokrates`in Aristofanes tərəfindən gülünc hala salınması nə qədər gerçəyə yaxınsa, Platon`un sofistləri təhrif etməsi də o qədər gerçəyə yaxındır. Yalnız bu fərqlə ki, birincisinin səbəbi siyasidir, ikincisi isə fəlsəfi bir kinin nəticəsidir" (Friedrich Albert Lange. Materializmin tarixi və günümüzdəki anlamının eleştirisi. 1-ci cild, Sosyal yayınlar, 1998; səh. 57).

Sofistlər müəyyən düşüncə və həyat tərzi olan, onu təbliğ edən bilikli insanlar idi (bu, onların ortaq tərəfidir, konkret görüşləri isə bir-birindən fərqli idi). Afinada kök salan demokratiya, vətəndaş cəmiyyəti, bu yeni həyat sofistləri yetişdirdi demək mümkündür. Protaqoras`ın "insan hər şeyin ölçüsüdür" prinsipi fərdlərin yaradıcı və islahatçı ruhlarına mane olan ənənələri aşmağa kömək edə bilirdi. Lakin bu prinsip həm də "güclü haqlıdır" kimi təhlükəli yola da işıq saçır.

**Qorqias**`ın (?"-480"-?"-380") cənubi İtaliyada doğulduğu deyilir, Empedokles`in tələbəsi olub. Siciliyada Ritorika üzrə məşhurlaşıb (ritorikanı /xitabəti Empedokles icad edib, Qorqiasa öyrədib, Qorqias da Afinaya satıb. Aristotel), Afinada az olub. O, varlıq, düşüncə/idrak və ünsiyyət məsələlərinin mürəkkəb olduğunu göstərən məntiqi aforizmlərin (paradoksların?) müəllifidir. Qorqias`a görə bir şey var olub bir şəxs tərəfindən bilinsə belə, onu başqasına anlatmaq çətindir; heç bir şey yoxdur, olsa onu dərk etmək, anlamaq olmur, anlayanda onu başqasına anlatmaq olmur. Bəlkə də, xitabət fəlsəfədən faydalıdır demək istəmişdir. Sofistlər fəlsəfədən daha çox yaşamaq prinsipləri, xitabət, siyasətlə maraqlanır, insanlara bunları öyrətməyə çalışırdılar.

Sofist təlimini  sistemli bir fəlsəfi məktəb saymaq bəlkə də doğru deyil. İlk sofistlərdən fərqli olaraq sonrakılar, mümkündür ki, Afinanın pozulan mühitindən və digər amillərdən təsirlənib ölçüsüz, dağıdıcı, hətta əxlaqsız fikirlər irəli sürürdülər. Sonrakı sofistlər "tanrılar bic insanların uydurmasıdır" fikrini ortaya atdılar. Onlar, gərək ki, yunan fəlsəfəsəsində ilk dəfə, dünyada şərin varlığını tanrıların varlığı və ya tanrıların insanların işinə qarışması ideyalarını inkar etmək üçün istifadə etdilər. İlk sofistlərin dövlət, cəmiyyət içində insan təlimi sonrakılarda dövlət və cəmiyyət əleyhinə təlim ilə əvəz olunmuşdu. Onlar təbiət etibarilə, bu səbəbdən ümumiyyətlə, insanların

bərabərliyi, insan təbiətinin, təbiətdən doğan fikir və hərəkətlərin qanunlardan üstünlüyünü (yunan, ya qeyri-yunan; azad insan, ya qul) irəli sürürdülər. Əslində, bu, mürəkkəb məsələdir, təbiəti etibarilə insanlar müqayisədə daha güclü, daha ağıllı,..ola bilir, fərqli iş görüb fərqli haqlar istəyə bilərlər (Nietzsche!). Digər tərəfdən Herodot`un tarixi də müxtəlif xalqların fərqli adət, mədəniyyət və dövlətçiliyinin varlığını, yunan dəyər və qanunlarının universal olmadığını göstərirdi. Sofistlər ümumi cəmiyyətə xas olan dəyərləri, o cümlədən tanrıları, qanunları yox sayır, hər fərdin öz həqiqəti var deyirdilər. Sofistlərin Tanrıları tanımaması, qanunlar və dövlət əleyhinə fikirlərini Platon kəskin tənqid edir, onları pozuculuqda günahlandırırdı. Bu, sonda, böyük ehtimalla, gücün doğruluğuna, gücün hakimiyyətinə gətirib çıxarmalıdır.

Elis`li (Pelopennes yarımadasının şimal-qərbi tərəfdə bölgə) **Hippias** əsasən "-5"-ci əsrin ikinci yarısında yaşamış (o, Sokrates öldürüləndə sağ imiş), deyilənə görə çox uzun ömür sürmüş məşhur sofistdir. Sokrates`in müasiri, Protoqarısın gənc müasiri olub. Çox geniş bilik sahibi olan Hippias Yunanıstanı gəzə-gəzə (əsasən Afinada yaşayırdı) nitqlər söyləmiş, hesab, həndəsə, astronomiya, musiqi, siyasət, poeziya, ədəbiyyat və qramatika, arxeologiya, natiqlik, incəsənət sahələrində dərs demiş, diplomat kimi də fəaliyyət göstərmiş (müxtəlif yerlərdə, xüsusilə Sparta`da Afinanı təmsil etmiş), şöhrət qazanmışdır. Onun haqqında məlumatların bəziləri birtərəfli, digərləri dumanlıdır. Platon ("Hippias minor" və "Hippias major" adlı dialoqlarında) Hippiası özündən razı, lovğa, çox bilən, amma bilikləri səthi olan bir sofist kimi təqdim edir, onu gülünc vəziyyətə salır. Hippias qeyri-adi yaddaşa malikmiş, çoxbilginliyini bununla da izah edirlər. Hippias tarixdə, əsasən, ona aid edilən bir riyazi kəşfə görə qalıb –belə demək mümkündür. O, üç məşhur məsələdən biri olan bucağı üç bərabər hissəyə bölmək məsələsini həll etməyə çalışıb. Hippias`a aid edilən ideyalardan biri də kainatın təməlinin oddan ibarət olmasıdır. 1.Ivor Bulmar-Thomas. "Hippias of Elis." Complete Dictionary of Scientific Biography. 2008. http://www.encyclopedia.com/doc/1G2-2830902010.html. 2. O'Connor, John J.; Robertson, Edmund F., "Hippias", MacTutor History of Mathematics Archive, University of St Andrews .

Sofistlər bir tərəfdən, natiqlik sənəti (ritorika) digər tərəfdən fikir irəli sürüb onu deduktiv yolla isbat etmək məharətini populyarlaşdırdı və inkişaf etdirdi. Bu, zənnimcə, riyazi təklifləri də ilkin şərtlərdən (aksiomlardan) deduktiv yolla almaq, yəni isbat olunacaq faktı-teoremi dürüst ifadə etmək və bu ifadə olunmuşu doğru qəbul edilmiş faktların köməyi və silloqizmlərlə sübuta yetirmək mədəniyyətinin formalaşmasına gətirib çıxardı (və yəqin ki, öz növbəsində riyazi mühakimələr də sofistlərin deduktiv mülahizə sisteminə təsir

etmişdi). Rasionallaşan düşüncə mifləri də dünyanın, kainatın təbiəti, əmələ gəlməsi kimi məsələlər istiqamətində rasionallaşdırmağa çalışdı, əsas elementləri (su, hava, daha mücərrəd apeyron,...) və qüvvələri anlamaq və ifadə etmək yolunu işıqlandırdı. Demokratik quruluş açıq müzakirələri təşviq etdi, güclü məntiq və gözəl ifadə tərzi öz daşıyıcısını yaşatdı və şöhrətləndirdi. İdman yarışları (olimpiadalar) ilə yanaşı natiqlik yarışı, söz və fikir yarışı geniş yayıldı. Sofistlərin fəaliyyətinin mühüm bir tərəfi də dil təhlilinin güclənməsi idi.

## D. Sokrates

5-ci əsrin sonlarına yaxın Afinanın (və müttəfiqlərinin) Peloponnes savaşında (“-431”-“-404”) məğlub olması və bir çox sahələrdə (iqtisadi, siyasi, əxlaqi,...) başlanan böhran, aristokratlarla demokratlar arasındakı barışmazlıq və nifrət deyəsən sofistlərə və Sokratesə qarşı hirs və kinin artmasına səbəblərdən biri olub.

Afinalı **Sokrates** (?”-470/69”-“-399”), sofistlərə etirazla (sofistlər öyrətmə maskası, görüntüsü altında pul qazanmaq ehtirası naminə ova çıxanlardır...Platon: “Sofist”) və sofistlərin davamı olaraq meydana girmiş, xalq və əxlaq fəlsəfəsinin zirvəsi, şifahi müdrikliyin təcəssümü, filosofcasına həyat sürmüş və dünyadan filosof ölümü ilə getmiş gerçək, amma əfsanələşmiş bir şəxsdir. O, savaşlarda göstərdiyi hünər, həyatda ədaləti qoruyan cəsur hərəkətləri və əlbəttə ki, filosofluğu ilə zamanının ən populyar insanı olmuşdur. Görünüş cəhətdən çirkin, davranışlarında ölçülü, çox dözümlü olmuş, çox sadə geyinər, ayaqyalın gəzərmiş, iki dəfə evlənmiş, üç oğul atası olub. Tələbəsi Platon`a məxsus bir çox əsərlərin baş qəhrəmanıdır; digər tələbəsi, tarixçi və hərbçi Ksenofon (t.”-430”-“-354”) da Sokrata aid dialoqlar yazmışdır. Aristofan öz “Buludlar” komediyasında Sokratın xoşagəlməz, gülünc surətini yaratmışdır (Platonun “Ziyafət” dialoqunda Sokrat və Aristofanın bir məclisdə yan-yanaşı mehribanca iştirakı və söhbətləri təsvir olunur).

Sokratesin gücü ağıl və səmimiliyin vəhdətindədir, sual-cavab ustalığındadır. Platon onun özünə qapandığı, ətrafa fikir vermədən uzun müddət bir yerdə dayanıb düşündüyü səhnələri təsvir etmişdir.

Platon “Apologiya”sında (Sokratın məhkəmədə özünü müdafiə çıxışı haqqında məşhur əsərində) bir əhvalatı yada salır. Delfoi/Delphoi kahininin “yunanlar içində ən müdrik şəxs Sokratesdir” fikri, rəvayətə görə Sokratesi təəccübləndirmiş və o, müdrik insanları tapmaq üçün tanınmış dövlət adamları, şairlər, müxtəlif sənət sahibləri ilə söhbətə girişmiş, onlarla humanitar məsələlər ətrafında müzakirələr apamışdır (Delfoi məbədi üzərində insana müraciətlə “özünü dərk et” yazılıbmış). Onun gəldiyi nəticə gözlənilməz olub:

insanlar bildiklərini sanır, lakin bilmirlər. Və Sokrat bunu həmin adamların üzünə demiş, öz dediyi kimi onların nifrətini qazanmışdı. Sokrates`in onlardan fərqi heç nə bilmədiyini dərk etməsiymiş. "Bir şey bilirəmsə, o da heç nə bilmədiyimdir". Amma bilik əldə oluna biləndir. Bilik insanın fəzilətli olmasına kömək edir. Tək müdrik olan isə Tanrıdır.

Sokratesin təlimi bilgisizlik, şübhəçilik və əxlaqi dəyərləri əldə tutaraq dialoq aparmaqla anlamaq, bilgi əldə etmək, həmçinin özünü yetişdirməkdir. Bu, əlbəttə ki, bir fəlsəfi fikir olaraq şübhəçilik deyil, tənqidi düşüncə vasitəsilə bilik əldə etməkdir. Sokrates özünü dərketmə yolunun insanı fəzilətə doğru apardığını deyirdi. Sokrates materialistlər kimi tanrısız olmayıb, əksinə tanrılarsız əxlaqın ola biləcəyinə inanmamışdır (Delphoi kahininin Sokratesi ən müdrik etməsində, az da olsa, bu fakt da rol oynamış ola bilər). İnsanın məqsədi xoşbəxtlikdir. Əsl xoşbəxtlik  fəzilətli/comərd/ləyaqətlı/yaxşı əxlaqlı (dobrodetel`/virtue) və ədalətli olanlara nəsib olur. Fəzilətli insan yaxşı-yamanı, xeyir-şəri bir-birindən ayıra bilir. Sokrates insanı mərkəzdə yerləşdirmək baxımından sofistlərə yaxındır.

Bu dövrün əxlaq fəlsəfəsini mərkəzə qoyan filosofları təbiətşünaslıq məsələləri içində də əxlaqa yer ayırırdılar. Sokrates də sofistlər kimi kainatın materialist izahını sevmirdi. Sokrates Anaksaqoras`ın kainatı bir Ağlın (Nus`un) yaratdığı fikrindən ruhlanmış (Ağlı tanrı olaraq qəbul etmiş), lakin onun digər kainat hadisələrini də bu yolla izah etməsini görməmişdir. Anaksaqorda yaranışın və gərdişin bir məqsədə doğru hərəkətdən ibarət olmasını, bu yaradıcı qüvvəni, teleoloji yanaşmanı görməyən Sokrates hirslənmiş, fizika əvəzinə insan təbiətini, əxlaqi və mənəvi dəyərləri öyrənməyə (və beləliklə öyrətməyə və ya təbliğ etməyə) başlamışdır.Sokrates öz tələbələrinə səma cisimlərinin hərəkət qanunları, onların mənşəi, yerdən olan məsafələri kimi məsələlərlə məşğul olmağı məsləhət görmürdü. Tələbəsi Ksenofont Sokratın sözlərini yada salır: bunlar insan üçün bir sirr olaraq qalacaq, insana hansı sirrləri açıb-açmamağı tanrılar özləri bilərlər. Sokrates və Platon (həmçinin Aristotel) hər şeyin məqsədli, insan üçün, insanın xeyrinə yaradıldığını irəli sürürdülər (materializmə qarşı əsasən teleoloji baxış; materializmi tam inkar etməsələr də).

Dialoqlarında o özü də tələbədir, əsla müəllim deyil. "Pislik edən onun pislik olduğunu bilmir" (yəni günahkarları öldürməyək, islah edək, başa salaq?!). "Pislik etməkdənsə, pisliyə məruz qalmağı üstün tutardım" (Platon. "Qorqias"). Sokrates (Platon?!) dialoqlarında sofistlərin əksinə fərddən asılı olmayan, dialoqdakı hər iki şəxsin qəbul etməli olduğu bir doğrunun varlığını göstərirdi. Sofistlərin nisbiliyinə qarşı Platon dəqiq/riyazi sübut oluna bilən fikir qoyurdu; bu, sofist nisbi fikrinin yanlış olduğunun sübutuna çevrilirdi.

Sokrates Afina gənclərini yoldan çıxarmaqda, onların əxlaqını pozmaqda, yunan tanrılarına inanmayıb başqa tanrılara tapınmaqda, bir sözlə, əxlaqsızlıq və dinsizlikdə, gəncləri də buna cəlb etməkdə günahlandırıldı və məhkəməyə cəlb edildi. Bu dövrdə Afina siyasi, iqtisadi və hərbi cəhətdən çox zəifləmişdi; vəba və vətəndaş qarşıdurması da bunların üstünə gəlmiş, Afinalılar pərişan idi. Aristofanes "-423"-də yazdığı "Buludlar" dramında Sokrates`in bənzər günahlarından söhbət açmış, cəza olaraq evi yandırılmışdı (əsərdə). Platon məhkəmədə iştirak etmiş və sonralar (bir neçə ildən sonra?) öz "Apologiya"sını yazmışdı. Sokrates məhkəmədəki çıxışında bacardığı işin həqiqəti demək olduğunu demiş, onun tanrısız olduğu haqqında Aristofan və tanımadığı şəxslər tərəfindən köhnədən şayiələr yayıldığını yada salmışdı. Sokrat günahlandırılmasına əsas səbəb olaraq "fəlsəfənin narahatlıq yaratdığını" vurğulamışdı. Fəlsəfə öz təhlili ilə "böyüklərin" nüfuzuna toxunur; və filosof  (Sokrates) bu təhlildən qaça bilməz. Sokrates ona qarşı yönəldilən bütün iddiaları təkzib edir: tanrılara sitayişini edir, vətəndaş kimi üzərinə düşəni edib, savaşıb, ədaləti qoruyub, dürüst olub, dərs üçün heç kimdən pul almayıb (sofistlərin əksinə), kim gəlsə onunla söhbət edib, heç kimi geri qaytarmayıb.

"Nə qədər ki, nəfəsim üstümdədir və gücüm var - filosofluq etməyi buraxan deyiləm...". "Şübhəniz olmasın ki,...məni edam etməklə siz daha çox özünüzə zərər verəcəksiniz, nəinki mənə". Sokrat tələbələrinin və onların valideynlərinin məhkəmədə iştirak etdiyini və onların heç birinin Sokratın gəncləri yoldan çıxarması barədə şahidlik etmədiklərini də nəzərə çatdırır. (Platon. "Sokrates`in Apologiyası/Müdafiəsi".).

Məhkəmə bir qədər səs üstünlüyü ilə Sokratı suçlu saydıqdan sonra Sokrat qanunlara əsasən özünə ağır ölüm cəzası əvəzinə digər, amma bir qədər ağır cəza verilməsini istəyə bilərdi. Sokrat isə ölüm cəzasının müəyyən (çox böyük olmayan) pul ödənilməsi ilə əvəz olunmasını istədi (Platon`u zaminlərdən biri olaraq göstərmişdi). Məhkəmə bunu ələsalma sayaraq bu dəfə böyük əksəriyyətin səsi ilə Sokratı zəhərli su baldırğanı udmaqla ölümə məhkum etdi. Bundan sonra Sokrat son çıxışını etdi. Afinalılara müraciətlə "insanları öldürməklə doğru yaşamadığınızı unutdura bilməyəcəksiniz" dedi. Ən sadə, ən yaxşı yol: "başqalarının ağzını bağlamayın və özünüz də mümkün qədər yaxşı olmağa çalışın". "Artıq getmək vaxtı çatdı, mənə-ölmək üçün, sizə - yaşamaq üçün; bəs bunlardan hansı yaxşıdır – bunu Tanrıdan başqa heç kim bilmir".

Ölümdən qaçmaq istəmədi (dostlarının təkidinə baxmayaraq). Platon qaçmağı Sokratın qaçmaq istəməməsini onun öz prinsiplərinə xəyanət etməməsi və qanunlara hörmət etməsi (demokratiyanı sevməsə də) kimi şərh etmişdir. Ksenofon da Sokratın məhkəməsi haqqında "Sokratın məhkəmədə

müdafiəsi/apologiyası” adlı əsər yazmışdır. O, ölüm qərarından sonra Sokratın “dünya ilə vidalaşmaq zamanı gəldi” kimi düşündüyünü yazmışdır.

Sokratesin himayə etdiyi iki şəxs (biri Platon`un qohumu-anasının əmisi olan Kritias, digəri Alkibiades) Afinaya böyük ziyan vurmuş, biri insanların haqsız ölümlərinə qərar verənlərdən olmuş, digəri düşmən tərəfə keçmişdi (və onlar demokratların düşməni olan aristokratlar idi). Sokrates həmçinin Afinada tətbiq olunan xalq məhkəməsi, xalq məclisi kimi demokratik ünsürlərə toxunur, bu cür işlərin peşəkarlar tərəfindən görülməsini doğru sayırdı. Filosoflar intizamsız, hər kəsin söz dediyi demokratiyanı sevmirdilər. Görünür ki, işin altında yatan bu siyasi səbəblər üzündən məhkəmə onun haqqında ölüm qərarı çıxardı. Lakin Sokrates sevmədiyi qanunlara belə hörmətlə yanaşmış, ona qaçmağa imkan yaradılsa da, qaçmamış, bununla da təlimi ilə həyat tərzinin bir-birinə qovuşduğunu göstərmişdir.